Azərbaycan.- 2020.- 25 dekabr. S. 6.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezidentim!

Qırx dörd gün davam edən zəfərlə dolu Vətən müharibəsini böyük məharətlə başa çatdıran qəhrəman Azərbaycan Ordusu Sizin Ali Baş Komandanlığınızla adını müasir tariximizə qızıl hərflərlə yazdırdı.

Biz Avropada Azərbaycanı təmsil edən insanlar olaraq, Sizin müharibə müddətində etdiyiniz çıxışlar və qətiyyətli mövqeyinizlə qürur duyduq. Hər dəfə Sizin səsinizi eşidəndə və mesajlarınızı oxuyanda Azərbaycanın doğma torpaqlarından daha bir hissəsinin Vətənə birləşdiyini öyrənir və səmimi-qəlbdən Sizə, Azərbaycan Ordusuna təşəkkür edirdik.

İyirmi doqquz il əvvəl müstəqilliyini bərpa etmiş can Azərbaycanımız Sizin liderliyinizlə möhtəşəm Zəfər qazandı, yeni nəsillərin qəlblərində böyük qürur hissi və özünəinam yaratdı.

Avropada yaşayan və Azərbaycanı qəlbən sevən insanlar olaraq, həm Sizin o böyük Zəferinizi, həm də doğum gününüzü təbrik edir, Sizə cansağlığı, uzun ömür diləyirik.

*Dərin hörmətlə,*

***İlhan AŞKIN,***
***Niderlanddakı Azərbaycan-Türk Mədəniyyət Dərnəyinin rəhbəri***